Fevralın 5-də Təhsil Nazirliyinin Apellyasiya Şurasının növbəti onlayn iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Təhsil Nazirliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunda məsləhətçi vəzifəsinə namizədlər Nuranə Mustafayeva və Vüsalə Yusifovanın, aparıcı məsləhətçi vəzifəsinə namizədlər Aysel Feziyeva, Vüqar Şahbazov və Sahib Tağıyevin, baş məsləhətçi vəzifəsinə namizəd Zərifə Səmədzadənin, İctimaiyyətlə əlaqələr sektorunda məsləhətçi vəzifəsinə namizəd Aygün Şahbazovanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə  baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 3 nəfərin şikayətinin  təmin olunması,  4 nəfərin  şikayətinin isə təmin edilməməsi barədə Şura tərəfindən qərar qəbul olunub.